**BAKI ŞƏHƏRİ .................... RAYON MƏHKƏMƏSİNİN**

**HAKİMİ .......................................**

XXXXX nömrəli mülki iş üzrə iddiaçıların vəkili və
……..etibarnamə əsasında səlahiyyətli nümayəndəsi
… .................................. oğlu tərəfindən

**V Ə S A T Ə T**

İcraatınızda olan XXXXX nömrəli mülki iş üzrə 25 avqust 2022-ci il tarixdə elektron məhkəmə sisteminə X-XX nömrəli ekspert rəyi və ona əlavə edilmiş 5 vərəq qoşma yüklənmişdir. Həmin ekspert rəyində cavabdehin iddiaçılara əməkhaqqları üzrə yekun olaraq 22.000 (on iki min) manat borcu olduğu göstərilmişdir. Bu isə iddiaçıların tələbindən xeyli az məbləğdir. Ekspertin hansı hesablama metodikasına əsasən bu cür qərara gəlməsini müəyyən etmək üçün ekspertiza rəyinin əsasını təşkil edən hesablamaların (hesabatın) nəzərdən keçirilməsi lazım gəlir. Belə ki, AR MPM-in 101.7-ci maddəsinə əsasən “Ekspertin rəyi məhkəmədə tədqiq olunur və digər sübutlarla yanaşı qiymətləndirilir”.

Məhkəmə Ekspertizası Mərkəzinin göndəriş məktubunda məhkəməyə göndərilən sənədlərin siyahısında eləcə də, 38 vərəqdən ibarət hesablama cədvəli olduğu göstərilmişdir. Həmin hesablamalarla və cədvəllərlə tanış olmaq iddiaçıların MPM-in 47.2-ci maddəsi ilə nəzərdə tutulmuş prosessual hüququdur. Belə ki, MPM-in 47.2 -ci maddəsinə əsasən” İşdə iştirak edən şəxslər işin materialları ilə tanış olmaq, onlardan çıxarışlar etmək və surət çıxarmaq, etirazlar vermək, sübutlar təqdim etmək və onların tədqiqində iştirak etmək, işdə iştirak edən digər şəxslərə, şahidlərə, ekspertlərə və mütəxəssislərə suallar vermək, vəsatətlər, o cümlədən də əlavə sübutların tələb edilməsi barədə vəsatətlər vermək, məhkəməyə şifahi və yazılı izahatlar vermək, məhkəmə prosesinin gedişi vaxtı ortaya çıxan bütün məsələlər barədə dəlillər gətirmək, işdə iştirak edən digər şəxslərin vəsatət və dəlillərinə etiraz etmək, məhkəmə qərarlarından şikayət etmək və mülki məhkəmə icraatı barədə qanunvericilikdə verilən digər prosessual hüquqlardan istifadə etmək hüququna malikdirlər”.

Yuxarıda göstərilənləri nəzərə alaraq və MPM-nin 47.2-ci maddəsinə əsasən

**Xahiş edirəm:**

XXXXX nömrəli .........il tarixli X-XX nömrəli Ekspertiza rəyinin əsasını təşkil edən və ........................... tarixdə məhkəməyə təqdim olunan 38 vərəqdən ibarət hesabat və hesablama cədvəlləri ilə iddiaçıların tanış olmasını təmin edəsiniz.

İmza: ............................................................ / İddiaçıların vəkili və etibarnamə əsasında səlahiyyətli nümayəndəsi

Tarix:____________________